**BEYNALXALQ ANA DİLİ GÜNÜ**

münasibətilə İsveçdə fəaliyyət göstərən

"QOBUSTAN" AZƏRBAYCAN AYDINLAR OCAĞININ

təşkilatçılığı ilə keçirilən 21 fevral 2025 tarixli konfrans iştirakçılarının

**güney azərbaycanlı soydaşlarımıza**

# MÜRACİƏTİ

*" Yaşasın xalqımızın dili, tarixi və milli xüsusiyyətləri!"*
*S. C. PİŞƏVƏRİ*

Əziz azərbaycanlılar, əziz güneylilər,

Bəyanatımızı 80 il bundan öncəgüneyli şairimiz Mirmehdi Çavuşinin ana dilimiz Azərbaycan Türkcəsi haqqında yazdığı şeirin bir neçə misrası ilə başlayırıq:

"Şahe İsmailə xalqım nə üçün hörmət edir?
Çün rəvac vermiş idi əsrə o sultan dilimi.
Gərçe illər boyu dövran biz ilə kəc getdi,
Qanə döndərdi mənim atəşe hicran dilimi ...
Qoy gül açsın ana yurdum, ona gülsün bu elim,
Eyləsin eşq ilə qoy indi gülüstan dilimi."

Əziz həmvətənlər, 1501-ci ildə rəsmiləşən dilimiz bugün hələ də Güney Azərbaycanda yasaqdır. Güney Azərbaycanda ana dilimizin, şair demişkən "gül açmasına", İran İslam rejimi imkan vermir. 80 il bundan əvvəl, Güney Azərbaycan Milli Hökümətinin (1945- 1946) qərarı ilə azadlığa çıxan dilimizə də Şah rejimi qadağa qoydu və bu qadağalar bu günədək davam edir. Halbuki, UNESCO və BMT tərəfindən, Ana Dilinin rəsmiləşdirilməsi təsdiq edilmişdir.

Ana dili insanın mənəviyyatıdır, təfəkkür tərzidir, kimliyini formalaşdırır, mahiyyətini təyyin edir və onun tarix və mədəniyyətini yaşadır. Bir millətin torpağını işğal etməklə onu hələ məhv etmək olmaz, amma onun dilini almaqla onu aradan qaldırmaq olar. Elə şah rejimi və indiki islami rejimi də ölkəmizin güneyində əsarətdə olan Azərbaycan türklərini əritmək üçün onların ana dilində yazıb-oxumaq, təhsil almaq, mədrəsələr açmaq, mədəniyyət ocaqları yaratmağı qadağan etmiş və bununla, Azərbaycanın güney hissəsində xalqın inkişaf yolunun qarşısını almışdır. Baxmayaraq ki, bu haqqı almaq üçün xalqımız Məşrutə İnqilabından bu günədək, yəni 118 il ərzində, mübarizə etmişdir və hətta 1324-cü ildə (1945-ci ildə) Pişəvərinin

başçılığı ilə Azərbaycan Milli Hökuməti dövründə, ana dilimiz, Azərbaycanın rəsmi dövlət dili qəbul olunub və bu dildə fərmanlar və qayda-qanunlar qoyulmuşdu. İstemarçı qüvvələrin əlaltısı olan şah rejimi və pan-farsizmə xidmət edən indiki iranşəhri şüubi rejim, Güney Azərbaycan türklərini həmin hüquqdan məhrum etmişlər və bu haqqı istəyən 21 Azər Hərəkatının fəallarını, və bütün sonrakı milli fəalları həbsə, zindana, sürgünə, cəza və cəriməyə, şallaq və işkəncəyə məhkum etmişlərdir. Təəssüf yeri buradadır ki, bu kimi haqsızlıqlara dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar və hətta islam rejimi ilə mübarizə iddiasında olan super-dövlətlər göz yumurlar və onların bu yolda mübarizələrini görməzdən gəlirlər. Lakin xalqımız, öz əzm və iradəsini ardıcıl olaraq keçmişdəki kimi gündən-günə ortaya qoymaqdadır və Azərbaycan Milli Hökumətinin Ana Dili Haqqında Qərarını həyata keçirmək gündən-günə xalqımızın zərurətinə çevrilir! Azərbaycan Milli Hökumətinin Ana Dili Haqqında Qərarı aşağıdakından ibarətdir:

**Azərbaycan Milli Hökumətinin dil haqqında qərarı**

"Xalqımızı, dövlət dəsqahına yaxınlaşdırmaq və ümumun ehtiyacatını sadə bir surətdə anlamaq və həmçinin milli dil və milli mədəniyyətimizin tərəqqi və təkamül yollarını təmizləmək üçün Azərbaycan Milli Hökuməti, özünün 16 dey tarixi cələsəsində aşağıdakı qərarı qəbul etmişdir:

1. Bu gündən etibarən Azərbaycanda Azərbaycan dili rəsmi dövlət dili hesab olunur. Dövlətin qərarları və rəsmi elanları, həmçinin xalq qoşunları hissələrinə verilən fərmanlar və qanun layihələri mütləqən Azərbaycan dilində yazılmalıdır;

2. Bütün idarələr (dövləti, milli ticarəti və ictimai) öz işlərini Azərbaycan dilində yazmağa məcburdurlar. Bu dildə yazılmayan dəftər və mədarik, rəsmi hesab olunmayacaqdır!

3. Məhkəmələrdə işlərin cərəyanı tamamilə Azərbaycan dilində aparılmalı və bu dili bilməyənlər üçün mütərcim təyin olunmalıdır;

4. Azərbaycanın bütün idarə, müəssisə və ticarətxanalarının tabloları mütləqən Azərbaycan dilində yazılmalıdır;

5. Rəsmi iclaslar və yığıncaqlarda suxənranlıq və müzakirə Azərbaycan dilində olmalıdır;

6. Azərbaycanlı olmayıb [*başqa milli mənsubiyyəti olan- S.K.], başqa dildə danışanlar və ümumi dövləti idarələrdə xidmət edənlər Azərbaycan dilində yazıb-oxumağı və danışmağı öyrənməlidirlər!

7. Maarif vizarəti, idarə məmurlarını Azərbaycan dili ilə aşina etmək məqsədi ilə ayrı dillərdən savayı, onlar üçün idarələrin cənbində böyüklər üçün məxsus klaslar açılmalıdır. Bu klaslarda dərs alanların iş müddəti bir saat azaldılmalıdır;
8. Azərbaycanda yaşayan və başqa milli mənsubiyyəti olan şəxslərin öz işlərini öz ana dillərində aparmağa haqqı vardır. Lakin, onlar öz rəsmi elanları və yazılarında öz milli dilləri ilə bərabər Azərbaycan dilini rəsmi dövlət dil olaraq işlətməlidirlər;
9. Azərbaycanda yaşayan xırda millətlərin [*milli azınlıqlar -S.K.] xüsusi milli məktəblərindəki təlim, öz ana dillərində olduğu halda, Azərbaycan dilinin də tədrisi məcburidir;
10. Azərbaycan Milli Hökümət maarif vəzirinin məktəblərdə dərslərin Azərbaycan dilində olması haqqındakı qərarını təsvib və təyid edib, mədrəsələrin milli dilə keçməsini bütün müəllim heyətinə bir milli vəzifə kimi tapşırır.

Azərbaycan Milli Hökümətinin baş vəziri Seyyid Cəfər Pişəvəri"

**Əziz azərbaycanlılar**!

Gəlin bütün imkanlarımızla Güney Azərbaycanın kənd, şəhər, məktəb və idarələrində yuxarıdakı qanunların icrasının həyata keçirilməsi uğrunda israrlı olaraq, ardıcıl mübarizə və tələb etməklə onları əmələ keçirməyə nail olaq! Bununla, mənəviyyatımızı birgə qoruyaq, dilimizi əridib aradan qaldırmaq qəsdində olan düşmənin arzusunu ürəyində qoyaq!

Dərin sayğılarla,

**Dr. Səadət Kərimi, İsveçdə "Qobustan" Azərbaycan Aydınlar Ocağının sədri**

**təşkilatın üzvləri:**

Eluca Atalı (yazar)

Duman Radmehr

Güşvar Pənahi

Ayda Əmir Haşimi

Azər Baxşəliyev

Elşən Nəzərov

Rəşadə Moen

Aynur Məlikova

Ülviyyə Nəcəfova

Rahim Telman Sadiqbəyli

Turan Əliyev

Dilarə Ələkbərova

Hüseyn Nəsirli

**Konfrans iştirakçıları :**

Abdulla Əmir Haşimi Cavanşir ( İsveç )
Prof. Mehman Dəmirli (Kipr)

Babək Azad  (İsveç)

Dos. Dr. Tünzalə Seyfullayeva

Jalə Cəfərova
İradə Məmmədova (Rusiya)
Əzim Həsənzadə
Aygül Yusubova (İsveç)
Əlirza Ərdəbili  (İsveç)

İlhamə Quliyeva
Xatirə Qəmbərova (Rusiya)
Prof. Rafail Qəribli  (Rusiya)
Umay
Əli Reza
Aida Aminzadə
Həmid Dadpur
Bəyim Rəhimova (İsveç)
Rəhim Şahbazi
Taymaz Təbrizi (İsveç)
Gültəkin Mürsəlyeva

Dr. Çinarə Qəbulova
Dos. Dr. Pərvanə Məmmədli

Ülviyyə Abbasova (Rusiya)

**Və digər imza atanlar:**

Prof. Məsud Əfəndiyev (Almaniya)

Prof. Solmaz Rüstəmova Tohidi
Prof. Qulu Məhərrəmli
Dos. Dr. Faiq Ələkbərli

Prof. Zümrüd Dadaşzadə

Prof. Reza Moridi (Kanada)

Dr. Xəlil Kələntar (Yaponiya)

Möhsün Ərdəbilçi (İsveç)
Səttar Sayınqala Sevigin (İsveç)

Cemal Mehmethanoğlu (Türkiyə)

Dos. Dr. Firdovsiyyə Əhmədova

Prof. Sebahattin Şimşir (Türkiyə)

Prof. Sevda Suleymanova

Dos. Dr. Nigar Gözəlova

Dosş Dr. Şəlalə Bağırova

Honor Əli
Hasan Barın (Türkiyə)

Rüfət Muradlı

Zaur Ustac

Bünyamin Qədimli

Rəhim Hüseynzadə (İranlı Mühacirlər Cəmiyyəti)

Firidun İbrahimi (İranlı Mühacirlər Cəmiyyəti)

İsmayıl Abdullahi (İranlı Mühacirlər Cəmiyyəti)

Cahani Sədaqət (İranlı Mühacirlər Cəmiyyəti)

Yadulla Kənani  (İranlı Mühacirlər Cəmiyyəti)

Pərviz Kazımi

Səriyə Ərdəbili Hekmat

Nadir Ajənnejat

Əkbər Dabbağ Dilmağani

Şərifə Cəfəri

Dos. Dr. Yusif Dirili Mahmudov

Dr. Turan İbrahim

Dr. Əlövsət Əmirbəyli (Xəzər Universiteti)

Dr.dos. İradə Bağırova

Dr. dos. Gülarə Yenisey (Türkiyə)

Dos. Dr. İlkin Qulusoy (Türkiyə)

Dr. Əli Şamil

Dr. Toğrul Kərimov (Almaniya)

Güllü Əhmədova (İsveç)

Natiqə Zeynalova (Axsu)

Sevda Dadaşova (SAF dərnəyi başqanı, İsveç)

Rafail Məmmədov (Rusiya)

Elsevər Məmmədov (Göyçay)

Əzimə Ağalarova (yazar, Almaniya)

Südabə Sərvi (yazar)

Dr. Dilqəm Əhməd (Türkiyə)

Serpil Devrim  (şair, yazar, Türkiyə)

Əbil Həsənov (yazar, Almaniya)

Samirə Məmmədova (İsveç)

Arzu Rzayeva (Norveç)

Günel Quliyeva

Düzgün Atalı

Dos. Dr. Nurlanə Ağayeva

Rəna Məmmədova

Mürsəl Zamanov (Göyçay)

Əlif Cahangir (İsveç)

Rəna Cəfər qızı Əliyeva

Sevinc Məmməd qızı Məmmədova

Elşad Məmməd oğlu Soltanov

Şahin Məmməd oğlu Soltanov

Zəhra Abdullayeva

Kəmalə Nəbiyeva  (İsveç)

Pərvanə Mehmanqızı (yazar)

Təbrizli Məmmədrza (Norveç)

Tubu Ələkbərova (Malmö, İsveç)

Elyaz Yelkənli

Xuraman Cəfərova (İsveç)

Həsən Təmcidi (İsveç)

Yeganə Cəfərova (Kanada)

Türkay Arif qızı Rəhimova (İsveç)

Səfərəli Qulizadə (İsveç)

Günay Əliyeva

İbrahim İbrahimov

Ana Kərimi (İsveç)

Ələsgər Quliyev

Yeganə Hüseynova (İsveç)

Sevinc Abdullayeva (İsveç)

Nuriyə Nuriyeva